# 2 – 4 dekabr 1996-cı il: Azərbaycan diplomatiyasının Lissabon qələbəsi

## *İrəvan siyasətçiləri son 4 ildə bu gerçəyi tez-tez təkrarlayırlar*

***Xanımlar və cənablar! ATƏT-in Lissabon Sammitinin iclası yenicə başa çatmışdır. Azərbaycan nümayəndə heyəti bütün məsələlər haqqında Lissabon Sammitinin qərarlarından razıdır. Biz belə hesab edirik ki, Avropada təhlükəsizlik və əməkdaşlıq işində daha bir böyük addım atılmışdır.***

***Azərbaycan Prezidenti Heydər Əliyevin ATƏT-in Lissabon Zirvə görüşü başa çatdıqdan dərhal sonra keçirdiyi mətbuat konfransındakı bəyanatından***

***3 dekabr 1996-cı il***

**(əvvəli 1-ci səhifədə)**

“ATƏT-in Lissabon sammiti 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirildi. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının baza formulu məhz bu görüşdə müəyyən edildi. Prezident Heydər Əliyev çevik və dəqiq diplomatik gedişləri ilə Azərbaycanın dünya birliyi tərəfindən müdafiə olunmasına nail oldu. Ermənistan Respublikası istisna olmaqla, ATƏT-in üzvü olan 53 Avropa ölkəsi Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi. Bu prinsiplər aşağıdakılardır:

1. Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü.
2. Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusunun verilməsi.
3. Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi.

Bununla da münaqişənin sülh yolu ilə həlli üçün dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən ədalətli hüquqi bünövrə yaradıldı və vasitəçilərin vəzifələri müəyyən olundu”.

Levon Ter-Petrosyan bu reallıqları qəbul etdi və rəsmi Paris Fransanın İrəvandakı səfirliyinin əli ilə, Ermənistandakı Qarabağ klanından alət kimi istifadə edərək ölkənin ilk prezidentinin qovulmasına nail oldu.

Azərbaycanın 44 günlük müharibəsindən sonra dərin peşmançılıq içərisində olan erməni jurnalistlər dəfələrlə Levon Ter-Petrosyana müraciət ediblər. Ona verilən çoxsaylı suallar arasından biri məğlub xalqın düşdüyü bataqlığın nə qədər dərin olduğundan xəbər verir: “Biz indi neyləməliyik?”




Təbii ki, bu suala indiki Ermənistanda heç kəs cavab verə bilməz. Çünki bu ölkənin çıxış yollarının hamısını Fransa bağlayıb və açarı da Yelisey sarayında saxlayır.

Yadımdadır, 44 günlük müharibənin başa çatmasından təxminən yarım il sonra – 2021-ci il mayın 8-də Ermənistan televiziyasına müsahibə verən Levon Ter-Petrosyan demişdi ki, Lissabon Sammitindən sonra masada Qarabağ haqqında adi bir sənəd qoyulmuşdu. Yəni ATƏT Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində əsas rola malik idi. “Həmin bəyannamə müzakirə olunan zaman Vardan Voskanyan da orda idi, o bizi əmin etdi ki, hər şey öz qaydasındadır. Lissabona çatanda Voskanyan bizi qarşıladı, onun rəngi qaçmışdı, kəkələyərək bildirdi ki, cənab prezident ötən gün Amerika yeni qətnamə təklif edib və bunu bizdən başqa hamı ilə razılaşdırıb. Mən veto qoydum. Həmin qətnamənin Klintonun masasına necə çatması haqqında da məlumatlı idim. Bunu Texasın neft lobbisi etmişdi. Yəni, onlar bildirmişdi ki, Əliyev bizdən xahiş edib, belə sənəd Lissabonda təsdiq edilməlidir... Bundan sonra biz danışıqlarda müəyyən razılığa gəldikdə, Əliyev imtina edirdi ki, bu, bizə sərf etmir. Artıq onlar dərk etmişdilər ki, zaman xeyirlərinə işləyir və haqlı da çıxdılar. Ermənistan isə uduzdu”.

Qeyd etdiyimiz kimi, işğalçı ölkənin jurnalistləri özlərinin ilk prezidentini tez - tez narahat edir, Ermənistanın düşdüyü indiki vəziyyətin xarakterizə olunmasına çalışırlar. Elə 44 günlük müharibənin başa çatmasının, yəni kapitulyasiya aktının ikinci ildönümü günü – 2022-ci il sentyabrın 27-də də ona “bəs biz indi neyləyəcəyik?” – deyə sual veriblər. Deyib ki, bizi çətin, ağrılı və heç birimizin ürəyincə olmayacaq qərarlar gözləyir: “Azərbaycanla və Türkiyə ilə müqavilələr imzalanmalıdır. Çünki yaranmış vəziyyətdə başqa yol yoxdur”.

Onun cavabının ən ağrılı hissəsi isə dilə gətirdiyi xəbərdarlıqdır: “Əgər heç bir sənəd imzalanmazsa, barışığa gəlinməzsə, Ermənistan yenidən dövlət quruculuğuna başlamalı olacaq”. Vəssalam!

İndi yenə də qayıdaq Lissabon Sammitinə. Ulu öndərin yuxarıda qeyd etdiyimiz bəyanatından sonra mətbuat konfransında ona çoxsaylı suallar verilmişdi. Həmin suallardan biri belə idi:

– Rusiya hökuməti Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına hazırdırmı?

– Bəli, Rusiya Federasiyası nümayəndə heyətinin başçısı, Rusiyanın Baş naziri cənab Çernomırdin bu gün sammitin son iclasında çıxış edərək, ATƏT-in fəaliyyət göstərən sədri cənab Kottinin bəyanatını tamamilə dəstəklədi və bildirdi ki, o, belə hesab edir ki, münaqişənin tezliklə aradan qaldırılmasına fəaliyyət göstərən sədrin bəyanatında göstərilmiş məhz həmin prinsiplər əsasında nail olmaq mümkündür. Deməli, o bildirmişdir ki, onlar bu məsələ ilə gələcəkdə də məşğul olacaqlar”.

Xatırladaq ki. ümummilli liderimizin həmin cavabdakı arqumentinin təsdiqini biz 2020-ci ilin payızında gördük. Rusiya tərəfi keçmiş Qarabağ münaqişəsinin məhz Azərbaycanın haqlı mövqeyinə cavab verən şəkildə həllini dəstəklədi.

O ki qaldı, Lissabon Sammitinin əhəmiyyətinə, qətiyyətlə deyə bilərik ki, həmin Zirvə görüşündəki diplomatik uğurumuz 2020-ci ilin payızındakı tarixi Zəfərimizə mükəmməl bir beynəlxalq zəmin yaratmışdı. Ekspertlərin fikrincə, “bizim diplomatik uğursuzluqlarımızın bünövrəsi məhz Lissabon sammitində qoyuldu” – deyən Levon Ter-Petrosyan tamamilə haqlıdır.

Ancaq Ermənistanın məğlubiyyətinə zəmin yaradan amillər təkcə Lissabon sammitində deyil, ondan sonra da çox tribunalarda möhkəmləndirilmişdi. Prezident İlham Əliyevin həm İkinci Qarabağ müharibəsindən əvvəl, həm də müharibədən sonra Soçidə (“Valday Diskussiya Klubu”nda) , Münxendə, Praqada, Moskvada, Vaşinqtonda və ya Brüsseldə – hansı məkanda olursa-olsun, diplomatik masalarda Azərbaycanın haqlı olduğunu, Ermənistanın isə məğlubiyyətdən başqa yolu qalmadığını hamıya sübut etmişdir.

Ancaq bu o demək deyil ki, Ermənistan məğlub olub deyə onların daha heç bir yolu qalmayıb. Siyasətdə variantlar tükənmir. Onların hələ bir yolları da var: Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq. Bunun üçünsə qonşu ölkələrə ərazi iddiasından əl çəkməlidirlər. Yəni ayıq başla düşünməlidirlər ki, bir daha peşman olmasınlar. Özləri bilərlər.

***İttifaq MİRZƏBƏYLİ***